



# Elm və Təhsil Mərkəzi “Təfəkkür” universitetində imtahanlar başladı

*İyunun 3-də Elm və Təhsil Mərkəzi “Təfəkkür” universitetində yay imtahan sessiyası başladı. Hər imtahan sessiyasında olduğu kimi bu dəfə də imtahanların başlanmasından əvvəl (22 may) Universitetin Elmi Şurasında yay imtahan sessiyasına hazırlığın vəziyyəti ətraflı müzakirə olundu. Universitetin rektoru, professor Rahim Hüseynov tələbələrin biliyinin düzgün qiymətləndirilməsi, imtahanlarda şəffaflığın, obyektivliyin təmin edilməsi üçün lazımı göstərişlər verdi.*

*Tələbələrin biliklərinin obyektiv qiymətləndirilməsi üçün bütün imtahanların yazılı formada keçirilməsi və şifrələnməsi üçün rektorun xüsusi əmri olmuşdur.*

*İmtahanların gedişində ortaya çıxa biləcək problemləri araşdırıb tədbir görmək üçün universitetdə “qaynar xətt” fəaliyyət göstərir. "Qaynar xəttə" daxil olan müraciətlər rektorun əmri ilə kafedralarda yaradılmış xüsusi komissiyalarda araşdırılıb tədbir görüləcəkdir. İmtahanların gedişindən, aldıqları qiymətlərdən narazı qalan tələbələrin müraciətinə rektor şəxsən özü nəzarət edir.*

*Birinci gün iqtisadiyyat və filologiya fakültələrinin yeddi qrupunda imtahan keçirildi.*

*"Qaynar xəttə" hələlik müraciət edən olmamışdır.*